Dörd yanımda yüz qan-qada,
Dünyam özü dönüb yada,
Yerdən bir gül əl uzada
Onu məndən uca biləm.

Hansı zülmət yapısıdı,
Hansı yolun tapısıdı,
Hansı sirrin qapısıdı,
Son günümə açа biləm.

Yolsuz zirvə, yolsuz dərə,
Ümid olub yol bizlərə,
Allah mənə yol göstərə,
Bu dərdlərdən qaça biləm...

1994

Çörək bahalaşanda söz ucuzlaşır. Savaş meydanında uduzan bir xalqın şairləri söz meydanında urvatsız görünür. Torpaqla birlikdə ruhumuz da itir. Vətən bütövləşmədikcə sözümüz də bütövləşməyəcək. Bəlkə buna görədi bütün nəğmələrimi yarımçıq sayıram. Ömrümün ən gözəl illərini Azərbaycanın müstəqilliyi, bütövlüyü uğrunda mübarizəyə verdim. Zaman məni irəli aprdıqca duyğularım geriyə çəkir. Atalarımızı, Mirzə Fətəlini, Sabiri, Mirzə Cəlili indi daha yaxşı başa düşürəm. Bununla belə içim işıq və ümidlə doludur. Elə bilirəm əsl şeirlərim bundan sonra, bu işıqdan doğulacaq...

ŞAİRLİK DƏBDƏN DÜŞÜB

Şairlik dəbdən düşüb...
Bir yerə sığışmaz,
qaragüruh,
ruh...
Bir yerə sığışmaz
ürəklə kötək,
daş ilə silahdaş
duyğuyla uyğu!..
Bu torpaq adalar insanla dolu,
Bir ana döşündə beş milyard zəli.
Torpaqdan sorulan torpağa dönür
Şairlər torpağa dönmür deməli!..

Duyğudur, arzudur, ruhdur qidası,
Doğuşu, ölümü dilindən gəlir.
İnsanlar torpağın yetirməsisə
Şairlər Allahın belindən gəlir.

Allah balasını Şeytan istəməz,
Yalnız duyanadır şairin ərki
Zülmdən, zülmətdən qorxmayan ilham
Şeytan ocağından düşər didərgin.

Dilimdə dolaşsa həqiqət ölür,
Ölüm də şairin bir sualıdır

Harda ki, əyrilər doğruya gülür,
Ora cəhənnəmin filialıdır!

Hətta cəlladdan da mərhəmət gözlər,
Könlünü qızdırmaz parçadan çiçək.
Dünyanı yerindən oynadan sözlər,
Soyuq ürəklərə çiliklənəcək!

Çəkib silahını getdi ordular,
Ancaq pozulmazdı şerin söz səfi!
Dünya yaranandan iki hədəf var:
Güllənin hədəfi, sözün hədəfi!..

Şeirsiz, işıqsız
darıxır ürək!
Şeirdən könlümə gur işıq düşür...
Şairin haqq yolu unudulantək
Dünyanın işləri dolaşıq düşür.

SAVAŞ ŞERİ

Ürəyim bərkiyibdi, nə eşq bilir, nə həsrət,
Nə ayrılıq, nə görüş, nə gərəksiz mərhəmət,
Yüz-yüz cilvə içində qayıtsa ilk məhəbbət,
Savaş meydanındayam, şerim də savaş şeri...

Bu qeyrət qalasını hər bəndə ala bilməz,
Bu sehirli qılıncı hər igid çala bilməz
Sözüm namərd zamana mehriban ola bilməz,
Başqaları yazacaq arxayın, yavaş şeri.

Kəsib atdım dilimdən taledən gileyimi,
Mən – sözün intiqamı, mən – tarixin deyimi,
Qan ilə yuyulubsa Vətənimin geyimi,
Kim vecinə alacaq zərbafta, qumaş şeri?!

ÖLÜM MƏDHİYYƏÇİLƏRİ

Yurdu yağmalanan
yıxılan, duran.
Vuruşa-vuruşa
ev-eşik quran.
Xalqın şairləri dünyadan küskün.
Sızıltı içində, giley içində,
Tale başımıza ildırım tökür,
Yanır harayımız bir ney içində.

Sözün başı ölüm, ayağı ölüm,
Dilimiz ucunda bayağı ölüm...

Hər şeyin halalı, haramı olur
Dərd də öz qədrini biləni sevir.
Yataqda ölənə – məzar narahat
Torpaq da döyüşdə öləni sevir.

Yer də yaşamaqdan yorulub daha,
Nə aldın, nə verdin sən əvəzinə?
Onsuz da hər yerdən ölüm göyərir
Məzar səpilirsə dən əvəzinə.

Düşmən ölüm biçir,
düşmən şər əkir,
Başdan töküləndən hədiyyə olmaz.
Bu xalqa yaşamaq öyrətməmişdən
Ölümə bu qədər mədhiyyə olmaz.

Yaşamaq!
Həyatı qoruya bilmək!
Torpaq doğma dildə dinəcək onda.
Tanrıya qovuşan ruhlar yaşasa
Ölüm də qiymətə minəcək onda.

Bizim də mayamız belə tutulub
Dünyanı söz ilə dəyişməliyik.
Ölüm – hamımızın son səngərimiz
Sonuncu sözədək döyüşməliyik.

01.II.1997

TANRIYA QOVUŞMAQ

Bakının siyasət burulğanından
Qopub ürəyimlə qaldım baş-başa.
Yovşanlı çöllərin ilıq havası,
Rənglər şəlaləsi – boz dağlar,
Yol üstə
yalqız ağac,
Sonra meşə adlı
yaşıl tamaşa!..
Hayana baxıram Tanrının hökmü,
Allahın şəklidir, üzümə gülür,
Tək mənim içimdə bəndə havası,
Tək mənim gözümdən ağrı tökülür.

Könlümü açaydım bu şəlaləyə,
Bu sellər içimdən axıb keçəydi.
Bu güllər əksidir min-min duyğumun,
Rəngini sözümə yaxıb keçəydi.

Saçımın ağını aparar leysan,
Bəlkə göz qəminə çəməndi dərman!!
Bəlkə yol götürdü diz ağrısını
Atdım bu daşları qanadlarımdan!

Torpaqda o qədər bərəkət var ki,
Özün öz ovcunda bitə bilərsən.
Qapını Əzrayıl döyməzdən qabaq
Tanrıya qovuşub itə bilərsən!..

ŞƏHRİYARIN XATİRƏSİNƏ

Başqa bir yolum qalmır-varıb, çıxıb getməkdən,
Düşmənlərin yerinə dostları göynətməkdən.

Doğma qaratikanda nəğməsiz də yaşaram
Bezdim qızıl qəfəsdə bülbül kimi ötməkdən.

Dünyaya can borcum var, verəcəyəm vaxtında
Əli aşağı olar borcumu gizlətməkdən.

Biz Allah işığıyıq, Günəşdən könlüməcən
Yazılır şah əsərim öz-özümə yetməkdən.

Torpağa enən bitir, ucalıqda bəhrə yox,
Qısırdı yüzüncü qat rişələnib bitməkdən.

Yeri çəkim üzümə ipək bir yorğan kimi
Orda qapılar açıq – qorxumuz yox itməkdən.

Alışmağa qəm yetər, qurumuş odun kimi,
Yorulmur cəhənnəmçi qazanı isitməkdən.

Bir az da ruh dilində, Tanrıdan gileylənim,
Əlim qabardı daha yaxasını didməkdən!

SOYUYUR

Dostlar süfrəsində soyuyur sözlər,
Qaynar qazanlarda xörək soyuyur.
Lap elə təndirlərdən qızarmış gələ
Halal kəsilməyən çörək soyuyur.

Gedib ürəyini günəşə yapa,
Gedib taleyini işıqdan qapa,
Qızmar səhraları dördnala çapa
Tənha zirvələrdə külək soyuyur.

Verilib insana ürək də, baş da,
Özünü qorusun ürəksiz başdan,
O qədər yorulub qanlı savaşdan,
Bəşər qızışanda mələk soyuyur.

Hər çiçək gözündə bir insan qanı
Hər insan gözündə bir gül dastanı,
Gülzarda Tanrıdan od alıb yanır,
Məzarlar üstündə çiçək soyuyur.

Özü həm əkinçi, həm də torpaqdı,
Ümiddən su içib yaşayacaqdı,
Vətən yüyürəndə ürək bayraqdı,
Vətən əriyəndə ürək soyuyur.

ÇIXIR

Xırda gölməçəni xırda burulğan
Qaldırır, astarı üzünə çıxır.
Dərddən də yol bulur öz yolu olan
Yolsuzun palçığı dizinə çıxır.

Olsa da hər gözdə şeytan marağı,
Dəyişməz sərhəddi qarayla ağın.
Nə qədər düz getsə əyri ayağın
Yenə əyriliyi izinə çıxır.

Doymaz, meyvəsini yetirəndə də,
Susmaz, nəğməsini bitirəndə də,
Bahar sevdasını itirəndə də
Ağacın həsrəti közünə çıxır.

Gileyi, güzarı, dordi, ahı yox,
Məskəni, məqamı, dövrü, çağı yox,
Tanrının insandan umacağı yox,
İnsan Tanrını da özünə çıxır.

Mənzilə bir gedir yüyürən, yatan,
Yuvalar dağıdan, ocaqlar çatan,
Sənə bu dünyanı havayı satan
Borcunu üç arşın bezinə çıxır.

İndi ki, hər şeyin ilki, sonu var,
İlkdən sona kimi bu dünya ağlar,
Dağların göz yaşı – sısqa bulaqlar
İnsanın çeşməsi gözünə çıxır.

Mən uda bilmirəm, dünya udsa da,
Unuda bilmirəm el unutsa da.
Millətin çəkdiyi dərdlər batsa da
Yenə Rüstəmxanlı sözünə çıxır.

BU MİLLƏT ÖLMƏYİ BACARIR HƏLƏ

Şərə meydan açan bir söz üstündə,
Könlü şüşələnmiş bir qız üstündə,
Heysiyyət üstündə, namus üstündə
Bu millət ölməyi bacarır hələ!

Nə olsun arada nadanı artıb,
Kişi geyimində qadını artıb,
Südünün mayası çürüyüb bir az,
Düşmən torpağına yeriyib bir az,
Özgə zurnasını çalanı çoxdur,
Sözünün yaltağı, yalanı çoxdur,
Nəfəsini çaşdırıb əyri tərəzi,
Ruhunu kiçildib tayfa mərəzi...
Nə olsun zəmi də alaqsız olmur!
Çinar da yarasız, calaqsız olmur!
Alıb kölgəsinə tikanlıqları
Vüqar heykəli tək ucalır hələ,
Elə daşa dönüb öz kökü üstə
Bu millət ölməyi bacarır hələ!

Min il öz nəfəsində boğulan odur.
Min əllə min qaba sağılan odur.
Boyunu kəsdilər – göyə dirəndi,
Suyunu kəsdilər, ildırım əmdi!
Haqqı səslədikcə dili gül açdı,
Yolu bağlandıqca dünya dolaşdı!
Onun ocağına qızındı dünya,
Qızınıb adına qısqandı dünya.
Qitələr bürüyən kökü danıldı.

O göydən gələndi, göyü danıldı.
İnsana ölməzlik öyrədənlərin
Üzünə qəbirlər açılır hələ.
Hətta məzarı da göz çıxarırsa,
Bu millət ölməyi bacarır hələ!

Əli qılınclıydı – qandallı olub,
Köhnə çəmənzarı qanqallıq olub.
Düşməni güldürür ölümə gülən,
Yataqda keçinir at üstə ölən...
Torpağın üstündə qoşa nöqtə tək
Şəhid məzarıyla qaçqın məzarı.
Tel-tel doğulmuşduq, el-el ölürük –
Kəlbəcər məzarı, Laçın məzarı!
Ölümə məhkumsa insanlığımız,
Açın, Vətən boyda açın məzarı!
Sonda nəfər-nəfər bölünürüksə,
Gedib qardaş deyim, qucum məzarı!
Mənim tariximin yelkəni açıq,
Orda zəfər çavlır, bac alır hələ.
Özü qurduğunu özü uçuran
Bu millət ölməyi bacarır hələ!

Ölməyi bacaran ölü deyildir,
Bu yol əbədiyyət yolu deyildir.
Bu millət qulların qulu deyildir,
Öləcək, öləcək, öləcək millət,
Sonra ölümünə güləcək millət,
Sonra öz gücünü biləcək millət!

İLLƏR AYRICINDA

İllər ayrıcında, vaxt ayrıcında,
Tale ayrıcında, baxt ayrıcında
Zirvədən boylanan yolçular kimi,
Baxıram bir ömrün yoxuşlarına,

Susuz çöllərinə, vədələrinə,
Baxıram sabahın ümid közərdən,
İlğıma bürünən vadilərinə.
Nə daş-tərəzi var, nə ölçü-mizan,
Nə tənbeh eləyən, nə günah yazan...

Yüz il də ötüşdü, min il də belə!
Mən də yollardayam min ildi belə!

Min ildir dünyayla yumruq-yumruğa
Savaş içindəyəm baharla, qışla.
Tarixin yolları – ömür yoldaşım,
Çadırım göylərdi – ulduz naxışla!
Min nəğmə qoşmuşam, sədası haqdan
Saldığım bağçalar çiçək-çiçəkdir.
Kimə əl uzatdım yüzbudaq oldu
Ancaq öz ürəyim yenə də təkdir!

Onsuz da bilinməz dəyəri ömrün,
Nə fərqi il gedir yaşımın üstən
Baş altda bu yurdun dedi-qodusu,
Bir də haqqı görən başımın üstə!

Ayrı bir dünyaya səsləyir yollar,
Qoyduğum nə oldu, apardığım nə...
Məni öz hökmünə bağlayanı da
Tapşırdım Tanrının mərhəmətinə!

O TORPAQ BİZLƏRİ GÖTÜRMƏYƏCƏK!

Üzümə dağların nəfəsi dəyir,
Alışır, danışır, yanır, inləyir.
Torpağa qayıtmaq asan iş deyil
Bu zülmü bir qərar bitirməyək,
O torpaq bizləri götürməyəcək!

Vətən dağlarında daş olanındı,
Yerdə su, göyündə quş olanındı,

Sinəsin açmağa xış olanındı
Ağac ək, toxum səp, yetirməyəcək,
O torpaq bizləri götürməyəcək!

Nə vaxt söz səpmişəm söz göyərdibdi.
Çaşıb köz səpmişəm köz göyərdibdi,
Əyri əkdiyimi düz göyərdibdi
Get, dərdiyi ovut, başına əl çək,
O torpaq bizləri götürməyəcək!

Hər daş qulağında dilini atdın,
Hər ev divarında əlini atdın,
Özün ölməkdənsə ölünü atdın
Nə qədər istəsən ağla, haray çək,
O torpaq bizləri götürməyəcək!

Bircə yol qorxudan sıyrılmadınsa,
Hər daşa, ağaca sarılmadınsa,
Vətəni qaldırıb qırılmadınsa
Ruhun da o yurda dönməsin gərək,
O torpaq bizləri götürməyəcək!

Fikrin aşınsa da dağlar aşınmaz,
Közü daşınsa da ocaq daşınmaz,
Südün çürüdümü ömür yaşanmaz
Bir kök qırıldımı, susdu min ürək,
O torpaq bizləri götürməyəcək!

Bolkə qulu olaq, nökəri olaq,
Bolkə Tərtər olaq, Həkəri olaq,
Namusun haqq-hesab çəkəni olaq
Yoxsa hər dönüşlə soyumaz ürək,
O torpaq bizləri götürməyəcək!

Bu Vətən dərsləri üsullanmadan,
Gözündə hər daşı qızıllanmadan,
Hərə öz içində qüsullanmadan
Üz tutub, yalvarıb tövbə etməsək,
Bu torpaq bizləri götürməyəcək!

14.II. 1997

MƏRHƏMƏT

Mərhəmət umuruq özgələrindən,
Ələ baxan olub bu boyda Vətən!
Çörəyi kənardan, suyu kənardan,
Məsləki kənardan, boyu kənardan.
Bu çay damarıma qan vuran gərək,
Bu qala-evimi qaldıran gərək!

Nə oldu, qollarım boşaldı birdən
Qaşığı ağzıma aparammıram,
Alaq çoxalıbsa – məşvərət gərək,
Onu da müstəqil qoparammıram!

Gəlir pulla birgə, pulla alınan,
Xaric istehsalı – çalan, çalınan.
Elə bil kişilər taqətdən düşüb,
Elə bil qadınlar qısırlaşıbdı.
Çirkə, zibilliyə itən yerimiz
Özgə əllərində qızıllaşıbdır!

Gözümün nuruna alır reklamlar,
Əcnəbi məxrəcli bu adlar şirin.
Lap elə yüzünün altından çıxsın
Xarici markalı arvadlar şirin...

Silah məktəbimiz olmayıb, bəlli,
Bəs sevgi məktəbi, bəs söz, bəs ürək?
Min ildi bu torpaq bizi yemləyir,
Onun dilini də yad öyrədəcək?!

Əxlaq da xarici, söz də xarici,
Ekranla ölçürlər keflərimizi.
Bənnam, daşyonanım
iş marağında
Tikən əcnəbidir evlərimizi!..

"Sən Allah, gəl mənim neftimi apar,
Beş qəpik borc versən mənə dərmandır,

Qızıma bir hesab, oğluma bir ev,
Sonra Azərbaycan sənə qurbandır!"

İtə də bir sümük, quşa da bir çöp,
Anadan doğulan körpəmiz borclu.
Millətin taleyi – özgə əlində,
Borc alan başqası,
amma biz borclu!

Hamımız köhnənin bilyard sevəni,
Bu qandal ciblərdə əlimiz iflic!
Təsəlli zirvəmiz namus sözüydü,
Zirvədən düşəndən dilimiz iflic!

Yaman çəkinirəm oyun sözündən,
Qoyunu hər çoban otaracaqdır.
Şuşanı, Laçını...
bazar əhlinə
Əcnəbi mərhəmət qaytaracaqdır?!

Peşəsi diz çöküb yalvarmaq olan,
Kişi mərhəmətsiz ölsə yaxşıdır.
Əcnəbi payına göz dikən xalqın
Payı Əzrayıldan gəlsə yaxşıdır!

3.II.1996

DÜNYA GÖZƏLDİ ANCAQ...

Dünya gözəldi ancaq, xəyanətkar gözəldi,
Fitnədi başdan-başa sözüylə işvəsiylə.
Neçəsinin fikrində ümid toxumu əkir,
Birisinin haqqını bölüşür neçəsiylə.
Cənnətin filialı, ancaq ürəyi bumbuz,
Verdiyi bircə tikə, almaq istəyi sonsuz.

Hamı onun quluymuş ağıyla, qarasıyla.
Hamını ala bilir zoruyla, parasıyla
Bir milyon qaçqınımı kor gözü görməz ikən,
Bir ovuc düşmənimə yanıb təəssüb çəkən,
Yurdumu zəbt edənin ağ yalanı ona haq,
Ya bizi sarsaq bilir, ya da özüdür sarsaq!

Məni soyur, talayır qatillərə pay verir,
Yüz məscid inildəsin, kilsəyə haray verir!
Bizim qanımız suymuş, alidir bunun qanı,
Bunlar təcrübə yapan, biz təcrübə siçanı?

Dünya gözəldir, dedim? Bu gözəllik yalandı!
Mələk cildi geysə də mahiyyəti ilandı!

Yenə Səlib yürüşü, yenə də din davası
Sivil dövlət, parlaman, – Vatikan aftafası!

Od vurub, yağ da tökür, görsün necə yanıram.
Bu Allah əmridirsə, Allahı da danıram!

ÇƏPƏR

Hərə çəpər çəkir öz bağçasına
Biri sevincinə, biri yasına.
Biri dövlətinə, biri varına,
Biri öz bostanı, öz gülzarına.
Bir də görürsən ki, el seyrəngahı,
Çevrilib birinin bağçası olur.
Min illər torpaqda arxayın yatan,
Xəzinə
birinin boğçası olur.
Biri Buzovnanın qayalarını,
Sakitcə ötürür öz balasına.
Biri Qobustanı özəlləşdirir,
Biri sahiblənir Qız Qalasına.

Gözü dağdan doymur, arandan doymur,
Meşədən, qamışdan, şorandan doymur.
Önünə nə keçir salır çəpərə,
Heyvan xislətini, qul qayəsini,
Özünün olmayan sərmayəsini
Olmayan abrını salır çəpərə.

Yazıq dənizimiz tor-tor bölünüb,
Axır mənzilimiz gor-gor bölünüb.

Tanrıdan bir elə pay kimi gələn,
Gur bulaq birinin evinə axır.
Yollarda görmürsən yol kəsənləri
Çaylar da birinin nəfinə axır.

Sağkən anasına baş səkməyənlər
Qalaça tikdirir el möhnətindən.
Mərmər də qaralır haramlığına,
Heykəl də qızarır xəcalətindən.

Göylər də bölünüb, şırım-şırımdı
Hər qarış yer üstə bir təzə ocaq
İnsanın iştahı itilənəndə,
Tanrının özünə yer qalmayacaq.

Fevral, 2004

BAKI

Məmməd Araza

Gözü oyun gəzir, eyş-işrət gəzir,
Qanımız batdıqca qan udur Bakı.
Bazar havasında, pul işığında
Şuşanı, Laçını unudur Bakı.

Düşmən əlindəykən yüz-yüz istehkam,
Xalqa lay-lay deyir bu qoca ehkam!

Gapçısı, gopçusu başına bəla.
Vətən nə vecinə kürsüsü varsa.
Hər gün qanımıza zəhər yeridən
Hərzəsi, mirzəsi, gürzəsi varsa!

Cənabı züy tutan, bəyi züy tutan,
Məclisi millətə azar-dərd Bakı.
Erməni şırmanır cıdır düzündə
Sən necə yatırsan, ay namərd Bakı!

Acların ovcunda ağzının dadı,
Evsizin könlündə sınan vüqarın.
Çöldə qum yeyirsə xalqın övladı
Necə ucaldırsan bu sarayları.

Rus verib yerini ingilis alan,
Bir pisin yerinə başqa pis alan.
Qucaqsız yaşaya bilməyən Bakı,
Qarabağ öləndə ölməyən Bakı!

Bu dəli sevdaya ruhumuz əsir,
Nə dedi öyrəşdim, tozundan başqa,
Bu necə şəhərdi, hamını sevir,
Hamını bəyənir özündən başqa.

Toyxana, meyxana, benzin-iç, bəzən,
Milyonçu millətə qul payı vermir.
Alıb ömrümüzü dəyər-dəyməzə
Bir qəbir yerini havayı vermir.
Bir ocaq yerini, ilham yerini,
Bir dua yerini, bir şam yerini,
Bir ölüm yerini havayı vermir.

Burda ürəyimi sıxdım hər daşa,
Daşlar duyğuluydu qardaşımızdan.
Bakı nə bilsin ki, Xəzərlə qoşa
Ayrı bir göl də var göz yaşımızdan.

Kim gəldi keçirtdi yuxarı başa,
Özünkü qürbətdə, çörək peşində.
Düşməni unudub mənnən savaşan
Niyə qopa bilmir bu vərdişindən.

Ağ evin gözləri qara bazarda
Qara bazarların başı Ağ evdi.
Neçə birincini girinc elədi
Yenə dəyişməyən naşı, Ağ evdi.

Bakı–Ceyranbatan şəkilli kitab,
Bir yola sığışan yurdlarım hanı?
Bir milyon qaçqının ürəyi kabab
Neynirsən bu qədər kababxananı?

Qədəhlər toqquşur silah yerinə,
Dünyaya od verib quruyan Bakı!
İtən torpaqlara mahnılar qoşub
Təkcə öz-özünü qoruyan Bakı!

TƏBRİZDƏ BAYRAM AXŞAMI

Təbriz göz dənizidi,
Qara ümmandı Təbriz.
Görər-görməz məni də
Dalğası sandı Təbriz!

Al yanaq, qara çadra
Gül əllər ağdı qardan,
Qaldırıb məni yerdən
Ərşə dayandı Təbriz!

Niyə dedim soyuqdu,
Hər halımdan duyuqdu
Mən canamsa, o ruhdu,
Ruhamsa, candı Təbriz!

Baxdı illər əvəzi,
Sordu dillər əvəzi,
Qucdu əllər əvəzi
Mənə dolandı Təbriz!

Çıxıb tarix pasından
Toy bulubdu yasından,
Demə göz sevdasından
Belə cavandı Təbriz!

Üzünə çadra atsa,
Başını dərdə qatsa,
Təkcə gözü azadsa
Yenə üsyandı Təbriz!

Nə çıxıb gedəcəyəm,
Nə burda bitəcəyəm,
Gözlərdə itəcəyəm,
Qoyma amandı, Təbriz!

GÜLƏN XANIMIN ÇİÇƏKLƏRİ

Türk Dünyası Araşdırmaları vaqfının başqanı
Turan Yazqana və həyat yoldaşı Gülən xanıma

Tanrının insana baxan gözləri,
Sehirli ayna,
Torpağın ruhu.
Əllərin dilsiz cavabı,
Ürəyin mərhəmət savabı.
Bir evin susmaz nəğməsi,
Möcüzə sərgisi.
Min il sonra da
Rəssamların bula bilməyəcəyi rəng.
Ruhla canın birliyi,
Sevgi deyilən bir ahəng!..

Çiçək sanıb aldandım...
Allahın bu evə lütfünü
Çiçək sandım!
Sən çiçək becərmirsən, bacım,
Torpaqda göz bitməz!
Torpaq
İnsan təbəssümü göyərtməz.
Üfləsən nəfəsindən uçar göylərə,
Ah çəksən,
Bir anda solar!
Su gərəkməz bu zərifliyə,
Baxışınla sulanar.
Bir damla göz yaşı qatsan
Qayıdar sevinc yağışı kimi,
Qayıdar nəvələrin baxışı kimi.
Barmaqların göyorib
Güldanlardan,
Gözlərindi baxır
Nigaran, nigaran.
Özün çağırmaqdan yorulanda
Güllər çağırır: "Turan!", "Turan!"

DANIŞ, BƏLƏDÇİ, DANIŞ

Yol sənin, yolaq sənin.
İt sənin, yalaq sənin.
Türkün dədə yurdunda
Yellənən bayraq sənin.

Zora tapınır dünya,
Səsini kim kəsəcək?
Allahın küləyi də
Sən tərəfə əsəcək!

Qurd ölüb, qoyun sağdır.
Necə istəyirsən yaz,
Necə istəyirsən poz...

Qan çıxır boğazına
Necə istəyirsən yoz!

Nə əlini tutan var,
Nə də ağzından vuran.
Sənin cildinə girib
Rahat yaşayır şeytan.

Dünya qopur yerindən
Köç – qitələr boyunca.
Neçə xalqın yurdunda
Dövran sürdün doyunca!

Təkcə ölkəyə deyil,
Ruha, yaddaşa hücum...
Yer altdakı məzara,
Qalada daşa hücum!..

Anlat bələdçi, anlat
Ancaq külü gördünsə!
Çalış odunu da de.
Bu dağın, bu çəmənin
Otun adını da de!

De, dilin dolaşmasın,
Ayağından yer qaçır
Burda hər daş, hər ocaq
Mənə könlünü açır.
Sənin bələdçiliyin
Bir maşın, iki maşın
Sənə susan zirvələr
Mənimlə salamlaşır.

Yazıq, özün bilmirsən
Yad qapı açdığını...
Gəl sənə izah edim
Nədən danışdığını!..

Tiberda, 22.I.1998

QARAÇAY ANALARI

Dünyanı tapşırın Qaraçay analarına
Naxış-naxış, ilmə-ilmə
Bəzəsin onu.
Tanrıya yardımçı olsun
Qaysaq bağlamış dodaqlarıyla
Laylasını oxusun.
...Gecə-gündüz çalışan barmaqlarıyla
Corabını gözəsin.
Ətəyini, köynəyini toxusun.
Keçə salsın
başına çəkib
yandırmağa ocağını.
Araqçınını tiksin
zərlə bəzəsin qotazını, saçağını
Beşik bağı hörsün
bələkləri bağlamağa,
Yaylıq toxusun
Gözünə basıb ağlamağa.
Aşılanmış dəridən ekvator boyda kəməri,
Qoyun dərisindən
ağappaq papağı buzlaq qədər
Hansı duyğuları desən
köçürsün ilməyə,
İstəyənə sevinc, istəyənə kədər!..
Keçirsin barmağından
ərlərin qışlığını
qızların başlığını,
yaşmaq ehtiyacı,
ya könül xoşluğunu.
Təbiətin min rəngi
bu əlçəyə hopubsa...
Fərman yazan əllərin qəzəbi söküləcək
Barmaqlar
açılmaqdan suala dönmüş
tətikdən çəkiləcək...

DƏRD DİLİ

Bu dildə anlaşırlar
uzaq-uzaq ulduzlar,
Pıçıldaşan çiçəklər
danışır dərd dilində.
Kim kəsib, harda kəsib
ağacın qollarını
Kəsik qollar baş-başa
alışır dərd dilində.
Bu dilin ilk kəlməsi
günəşdi – oddan gəlir,
Birinci qəm havası –
Tanrıdan ayrı düşmək!
Buna görə yolların
kələfi bir əldədir,
Yalnız yolun haqqıdır
Tanrı ilə görüşmək!
İnsanın kainata
səsini duyurmağa
Göndərilən qızıl val –
musiqidi – dərd dolu.
Harda yaşayış varsa
onu anlaya bilər,
Canlı varsa, dərd də var,
Həyat yolu – dərd yolu!..
Aşar milyon illəri –
yer sönər, səsi sönməz,
Bu dildi aləmlərin
tərcüməsiz, tək dili.
Torpağa endirəndə
dönər çörək dilinə,
Göylərə qaldıranda
ruh dili, ürək dili...

Nə vaxtdı yol gəlirəm
tale tacı başımda,
Doğuşdan ölüməcən
vuruş, qırğın, qazanc, iş...

Hara getdim içimdə
yeni bir dil həsrəti,
Həsrətsiz öyrəndiyim
yalnız dərdin diliymiş!
Dərd dünyanı kiçildir,
hamı onun acizi,
İnsan dil qohumudu,
ağıyla, qarasıyla.
Sevinci ocaq kimi
qabağına eşənlər
Ocaqda birləşmədi,
birləşəcək yasıyla.

UNUTMA

Bu dünyada hər kəsin öz kökü var,
Kökdən qopan, Allahı da danacaq.
Tək başına qızıl olsun daş-divar
Özgə ocaq özgəsinə yanacaq
Ömür borcdu bu yükünü unutma,
Min budaq ol, öz kökünü unutma!

Öz nəfsimiz özümüzə zindansa,
Günahını nəfsində gör, yurdda yox!
Kor iştahla sürülərin talansa
Təqsirini çobanda gör, qurdda yox!
Öz sürünü, öz qurdunu unutma,
Türkə kömək Boz qurdunu unutma!

Ata yurdu – dağ başında qalaça,
Hər bulaqda bir məclisi quruldu.
Səndən sonra dağlar kimə qalacaq?
Kim olacaq o çaylarda durulan?
O çayları, o dağları unutma,
O laylalı dodaqları unutma!

Parçalandı neçə yerə bir ürək
Şımır deyil Şeytan kəsdi aranı,
Dərdimizə dərman tapa bilməsək
Kim sağaldar köksümüzdə yaranı?
Hökmümüzü kimlər yazdı, unutma!
Bu namusdu, bu qisasdı, unutma.

Yüz tərəfdən qıcansa da diş mənə
Yenə yazdı , gül-çiçəkdi torpağım,
Bir əlimi qalxan etdim düşmənə,
Bir əlimdə ay-ulduzlu bayrağım,
Qovuşacaq ruh ilə can, unutma!
Birləşəcək Azərbaycan, unutma!
Yüksələcək qoca Turan unutma!

SİZ ALLAH AMANATI

Torpaq insanı udur,
Canlını, canı udur.
Əlyetişməz görünəni,
Bərbəzəkli taxtları,
Tüstülü obaları,
Milyonluq paytaxtları,
Hətta minillikləri,
Hətta zamanı udur.
Təkcə sözü udammır –
Söz Allah amanatı.

Nə qədər bəzənsə də
Düzlər dağa boylanır,
Allahı gəzə-gəzə
Göz uzağa boylanır
Ruh ayaqlar altında,
Baş yerinə qarındı,
Dünya Allahın deyil
Onu dananlarındı.

Halallığı pas tutub,
Düzlük köhnə bayatı
Dağlar dumanda gizli,
Düz Allah amanatı.

Sevgi, vuruş, əyləncə,
Yenə də tələsir gün
Astaca düşür gecə,
Sonuncu yuxu üçün
Olsun! Bu da bir işdi
Haqqını geri sayın...
Nə qələbə sevinci,
Nə sabahdan arxayın
Dostlar – üzəngi tutan,
Minməliyəm bu atı,
Sevinin, mən də getdim
Siz Allah amanatı!..

YATMIŞ VİCDANLAR

Hardan gəlir bu zəhər,
bu nifrət hardan yağır,
Torpaq necə bəsləyir
bu ilan-çayanları,
Gülüstan vətənimi cəhənnəmə döndərən,
Didərgin ruhumuzu hər gün talayanları...
Allah, dözə bilmirəm, al məni, apar məni,
Yaşat şərə sevinib,
zülmə ulayanları
Uca başlar kəsilir, düz əllərlə bərabər,
Sevirlər boyun əyib, kandar yalayanları...
Vecsiz vücudlarını saraylarda bəsləyib,
Yetimlərin mülkündən ocaq qalayanları.
Cənab Əzrayılın da dəyişilib iştahı,
Çirkli qanları qoyub sorur təmiz qanları.
Hansı haray, qışqırıq, göz yaşı edər kömək,
Hansı söz silkələyər bu yatmış vicdanları!..

QOPSUN MİLLƏTDƏN

Bu bizim Naxçıvan, bu bizim Muğan,
Bu bizim Qarabağ, bu bizim Şirvan,
Hamımız bir ürək, hamımız bir can,
Kim deyir ayıraq sümüyü ətdən,
Ayırmaq istəyən qopsun millətdən!

Sevinc də bizimdi, dərd də bizimdi,
Daşıyan çiynimdi, dözən dizimdi,
Mənim öz Bakımdı, öz Təbrizimdi,
Hər ev öz evimdi bu məmləkətdə
Ayırmaq istəyən qopsun millətdən!

Hamıya süd verdi qayğıkeş ana,
Min il min çay axır bir okeana,
Didmə bu alovu, əllərin yanar,
Hamıya pay düşüb son bərəkətdən,
Ayırmaq istəyən qopsun millətdən!

Hamının üzünə açıldı bir dan,
Eyni çeşmədəndi damarlarda qan,
Hamını eyni cür döydü bu zindan,
Yoğrulub çıxmışıq bu hərarətdən,
Ayırmaq istəyən qopsun millətdən!

Buludu yağışdan, çayları seldən,
Ağlı kəsərindən, qılıncı əldən,
Tanrını ilhamdan, nəğməni dildən,
Gözü işığından, ağlı zəhmətdən,
Ayırmaq istəyən qopsun millətdən!

Karvanı geriyə dönən deyildir,
Günəşi göylərdən enən deyildir,
Yüz çayı bağlaşan sönən deyildir,
O şam ki, alışıb yanır qüdrətdən,
Söndürmək istəyən qopsun millətdən!

MƏMMƏD ASLANA

Hər gülün önündə ay diz çökənim,
O güldən, çiçəkdən nə istəyirsən?
Onlar da dağların xiffət çəkəni,
O qəlbi kövrəkdən nə istəyirsən?

O duman zirvəyə yüklənən şələ,
O atlı Kərəmi arayan Lələ,
O qala sirrini açmayıb hələ,
O bağlı ürəkdən nə istəyirsən?

Daş çəkdin, dörd yanım daşlara taykən,
Çay çəkdin, ömrümüz axarı çaykən,
Özümüz bir rüzgar qanadındaykən
O ötən küləkdən nə istəyirsən?

Çəkdin tərəziyə əyriynən düzü,
Mövla da özünsən, dərviş də özün,
Cənnət qapısını döyürsə sözün,
Huridən, mələkdən nə istəyirsən?

Köçdümü saçına dağımdakı qar,
O qarda ömrünün hesabın apar.
Susur sualına canlı adamlar,
O cansız kəsəkdən nə istəyirsən?

İlham da dünyanın qaynar qazanı,
Birinin oduna mini qızınır,
Kompüter yazmamış lələk yazanı,
O susqun lələkdən nə istəyirsən?

Ay qoca dünyanın Dədə Məmmədi,
Dördlər ürəyimdə pəmbə-pəmbədi,
Fatehlər dünyanı düzəldəmmədi,
O yazıq fələkdən nə istəyirsən?

DÖZÜM

Allah, dərgahından mənə səbr ver,
Qatillər yemləyən hər günə dözüm.
Özüm öz evimdə həbs olunmama,
Özüm öz yurdumda sürgünə dözüm!

İşğala, zülmətə, ölümə bilmərəm,
Xəyanətə bilmərəm, zülümə bilmərəm,
Qandalda əlimə, dilimə bilmərəm
Əynimdə cəhənnəm kürkünə dözüm!

Tabutum başında gül deyir mənə,
Gülməsəm yüz murdar əl dəyir mənə,
Kişilər üyüdən bu dəyirmana,
Nökərin padşah börkünə dözüm!

Göydən təsəllimiz gəlir söz ilə,
Sözlə də işimiz çətin düzələ,
Ömür qismətini minnətsiz elə
Qoyma təlxəklərin ərkinə dözüm!

Qurd-quş suvaşa elin canına,
Qardaşı susatma qardaş qanına,
Ya məni bir yolluq apar yanına,
Ya qoyma bu axsaq tərkinə dözüm!

TƏKLİK

Çiçəklərin gözündə quruyur son damla yaş,
Buludlar göy üzünü qaraldır yavaş-yavaş,
Günün şüalarını qayçılayır bir ucdan
Tamamlanmış xalının ərişini kəsəntək,
Duman daşan süd kimi doldurur dərələri
Gözlərimi pambıqla örtməyə tələsəntək.

Min ilin xatirəsi daşa hopur an kimi,
Yalqızlıq örtür məni qranit yorğan kimi.

Nə ocaq, nə işartı, nə bir insan həniri,
Zaman oğru siçantək ürəyimi gəmirir
Demək bu yaşamaqdı, – üzgün, ayrı, kimsəsiz,
Sinən bir boşalan yurd, qurumuş, ölü dəniz,
Saçından asılantək qırx qapı arxasında,
Ərisin cavanlığın zəncirlərin pasında,
Min qaya arasında mamırlanmış daş kimi,
İnsan ikən torpağa, ağaca yoldaş kimi.
Nə gecələr sübhədək məni əzən günahım,
Nə Allah ümidinə, birtəhər yaşamağım,
Nə döyüşkən cəsarət, nə unutqan sərxoşluq,
Nə sevinc, nə təəssüf... Fəqət acı bir boşluq...
Kaş düşmən kəsiləydim, qovrulaydım nifrətdən,
Bir əsər qalmayaydı içimdə mərhəmətdən!
Nə nifrət var, nə sevgi,
Nə görüş, nə ayrılıq,
Bir ovuc su içində barmaq boyda bir balıq!

İlahi, mən hardayam, hayana atdın məni,
Niyə yerin üstündə, yersiz yaratdın məni,
Marsın quru səhrası, ya Ay daşı olardım,
Bəlkə özgə planet burdan yaxşı olardı!
Canamsa ruhumu ver, quşamsa qanadımı,
Yoxsa kiməm, nəçiyəm, handan bulum adımı?
Nə keçmiş, nə gələcək, ömür keçdi an kimi,
Səssizlik örtür məni, qranit yorğan kimi!

9.IX.1999

BAŞ DAŞI

Yaxınlar yaxından yanıb yaxılır,
Fikrimi dünyanın o başı çəkir.
Açıq pəncərədən çağırır güllər
Mənisə sığalsız çay daşı çəkir.

Bir üzü canavar, bir üzü qoyun
Ayıra bilmədim yasıynan toyun
Vətəni ayağa saldı bu oyun
Ruhumu bir meydan savaşı çəkir.

Fikrimi çayır tək bürüyən nə çox,
Kölgətək arxımca yürüyən nə çox
Sevinci süd kimi çürüyən nə çox
Məni yetimlərin göz yaşı çəkir.

O qədər *qansızın* qanadı var ki,
O qədər könlümü qanatdılar ki,
O qədər başıma daş atdılar ki,
İndi də başımı baş daşı çəkir.

NİYƏ QORXUR

Başlayandan doğru deyib, doğru yazıbsa
Bu söz, yazı sınağından dil niyə qorxur?
Tamahkarlar vızıldaşıb uçub gedəcək,
Gözəlliyi göz çıxaran gül niyə qorxur?

Dünya onun atəşindən qızınıbdısa,
Gəlib-gəlib bir ocağa qısılıbdısa,
Varlığını savaşlardan qazanıbdısa,
İlk döyüşdü, son döyüşdü?.. El niyə qorxur?

Ya ölümdü, ya qalımdı. Yollar dirənib,
Oxu, ruhum, Cəngi adlı bu zümzüməni,
Sağ olsunlar düşmənlərim oyadır məni
Qarışqanın kölgəsindən fil niyə qorxur?

ƏBƏDİ SEVDA

Bunlar...
Bir həyətlik dincliyi uca tutarlar
Tanrı cənnətindən,
Xəbərsizlər iştahının qurbanı
Mənim ruhumu bilməz!
yaşılkən kötüklənən,
yüz yana yaxılmaqdan içləri çiliklənən,
haram pul, haram tikə,
haram müftədən gələn,
çörəkdən suyunacan hər şey
müftədən gələn,
nə qədər yetişsə – kal...
düşüncəsi, inamı, dili, fikri də idxal,
qorxan – şimşək çaxanda,
leysan yağanda qorxan,
qaranlıq yuvalardan üzə çıxanda qorxan,
torpağın sevincinə arxları bağlanmayan,
bir çiçəyin mehrinə sıxılıb ağlamayan
Məni anlamaz əsla!

Bunlar...
Əlimiz üstə düşmən əli qoyanlar
laylası, duasını minnətlə oxuyanlar,
unudanlar, minillik yolun-izin dilini,
dünyaya sığışmayan dərdimizin dilini –
nə bilsin hardan gəlir gözümüzə çökən qəm
bu göylərə bağlılıq, bu sərhədsiz düşüncəm,
Çindən Qobustanacan
yazılı daşlarımın toz basan güzgüsünü
silib baxa bilməyən
gündoğan sevgisindən hər gün
doğa bilməyən
hardan duysun içimdə yaşayan
böyük ruhu,

hardan duysun nə demək
bu didərgin, bu ulu, bu yorulmaz türk ruhu?!
Onlara deyən varmı
Altaydan Balkanlara
Tanrıdan Savalana,
qopuz simləri kimi uzanan tarix yolu
hələ kökdən düşməyib
biz göylərdən gəlsək də,
yolu mən ağartmışam,
yollar göydən düşməyib.
Param-parça bölünmüş,
yürüşdən yorğun, əzik,
ancaq haqqa hamilə,
yenə tarix yolunun
bələdçisi... Bu bizik!
Bu bizik, mənəm, sənsən...
bu gün yorğun, cüssəsiz,
sabah fırtına kimi,
dünya boyu əsənsən!..
Bunlar...
bu etnomüştəbehlər
bu retrokommunistlər,
demokrat, islahatçı,
qlobalçı faşistlər,
və onların qulları,
Azərbaycan soyadlı
hədiyyə çocuqları
Məni duyammaz əsla!
Duymaz damarlarımda
dolaşan qaynar qanı,
Tanrıyacan yol çəkən
bu əbədi sevdanı!

2002

BU SƏNSƏN, İNAN

Sıxıcı günlərin soyuğu bitdi,
Ruhuma əl çəkdi ilıq bir səhər,
Ağır havanı qovan
taybatay pəncərələr,
dənizin duru havası,
ilk cümləsini yazacağım yazı
dünya doğulacaq zərrə duyğudan...
Bu sənsən, inan...

Yolçu, bu komanın yanında ötmə,
Alması göylərdə nağıldı, dinlə!
Qoy şehli çəmənə düşsün çəhlimin,
Divarlar isinsin hərarətinlə.
Bircə baxışından yanacaq ocaq,
Hər şey qayıdacaq ilkin rənginə,
Güllər açılacaq gül dodağından
Bu sənsən, inan...

Bir az mürgülüydüm, bir azca yorğun
Yüküm bir karvanın yüküydü amma.
Hər gün dörd yanımda evlər ucalır,
Mənimki quruca hörgüydü amma.
O da ki, bir azca yerdən aşağı,
Kirəmit gərəkməz, damı torpaqdan...
Kimdi "təzə" evə köçməyə qoymur?
Bu sənsən, inan...

Mən ki, istəyimin yazındaymışam,
Nəymiş dünyamızı qəfil saraldan.
Ürək soyuyanda nə fərqi varmış
O mərmər sarayın torpaq saraydan.
Bağla qapıları, kəs bu yolları,
Həbs elə, buraxma məni yanından.
Sirrini gəzirdim ölümsüzlüyün.
Bu sənsən, inan!

YAŞINI DEMƏ

Tənziləyə

Ad günün mübarək sevincim, dərdim
Bu günə ən gözəl duyğumu verdim
Sözüm gül-çiçəkdi, yoluma sərdim,
Çiçək yaşındasan, yaşını demə!

Bəlkə bahar gəldin, bəlkə qış gəldin,
Bəlkə məzarıma soyuq daş gəldin,
Nə zaman gəldinsə mənə xoş gəldin
İstək yaşındasan, yaşını demə!

Həsrətim sel idi – axını sənə,
Nə qədər nəğməm var, oxunur sənə,
Gülün ləçəyi də toxunur sənə,
Kövrək yaşındasan, yaşını demə!

Günəş şəfəqindən endirib bəlkə,
Məni bəxt atına mindirib bəlkə,
Allah cənnətindən göndərib bəlkə,
Mələk yaşındasan, yaşını demə!

Qanımı qaynadır ətirli yataq,
Ruhumu dincəldir bu ev, bu otaq,
Sirrimi oxuyan, dərdimə ortaq,
Kömək yaşındasan, yaşını demə!

Sevgi yaşayırsa, ilin fərqi yox,
Könlüm sənindirsə, dilin fərqi yox,
Sinəmdə, sinəndə, gəlin, fərqi yox,
Ürək yaşındasan, yaşını demə!

28.XI.1996

HƏYAT SƏS İMİŞ

Dut... dut... dut...
Telefonun o başında
Naməlum bir boşluq
Əlacsız sükut...

Sanki o doğma evdə
Nə hay verən olubmuş,
Nə danışan, nə gülən,
Sanki son anlarımdı
Telefonun səsiylə
Yoxluğuna tökülən.

Ürəyim atlanır lal qaranlığa
İlk dəfə duyuram
    Həyat – səs imiş.
İlahi, bir anda itdi hər şeyim
Səhər də,
axşam da
lap əbəs imiş!
Haraymış,
fəryadmış
bu dünya özü,
Mən səsin içində
yaşayırmışam.
İlk dəfə üzümdə ölüm həniri,
    ruhsuz qalan
    gözəri daşam!
Üstümə yırtıcı dalğalar gəlir,
Sonsuz qaranlıqda
    azdı gəmim də
Ən şirin sözlərim sənə yetmədi
Çatdıra bilmədim gileyimi də...
Yalvarıb deyərdim:
    qaytar o səsi

Barı yaşamağa həvəsim olsun.
Mənim gileyim də sevgiylə dolsun
"İnsafsız" deməyə bir kəsim olsun...

Dut... dut... dut...
Ölümdən betər bir sükut...

BƏDAHƏTƏN

Naxçıvandan Hüseyn Cavidin məqbərəsinin açılışından qayıdarkən təyyarədə bu münasibətlə hərə bir bənd deməliyidi. Mən də dedim:

Ulu Turan – ulu niyyət
Haqqa vara bəşəriyyət,
Uçuş yerin əbədiyyət –
Mərmərləşən qanadsanmı?

Sarı şeytan öldü, dədə,
Zaman mənə "gül" demədə,
Türkün atı kişnəmədə,
At üstündə muradsanmı?

Bir ulusun toyu, yaşı –
Tanrıdan alnımda yazı.
Mələklə şeytan arası –
Hər sözü kainatsanmı?

NƏ VAR

Şaxta gəzir şahlıq quşu
Bu soyuq qanlarda nə var?
Biz Allahın vurulmuşu,
Bəslənmiş canlarda nə var?

Mindik xəyalın atına,
Qonduq nağıl qanadına.
Baş vurduq yerin altına
Əski zamanlarda nə var?

Köhnəlməyən çuxasında
Daş asılıb yaxasından,
Qara torpaq – qara zindan
Göydə, dumanlarda nə var?

Ömür var ölümdən betər,
Uzandıqca duzu itər,
Bu yanlardan doyduq, yetər,
Görək o yanlarda nə var?

İSA HƏBİBƏYLİYƏ

Bu çalışan əlimiz, bu danışan dilimiz
Bu dağılan yuvamız, bu dözümlü elimiz,
Hər şeyi hökmü ilə bölübdü adilimiz –
Uca sandığın alçaq, müdrik dediyin naşı.

Qızılın üstündəsə inanma qızıl qana
Ormanlar bağışlasan çöpünə qızırğanar
Qısır bərəkətini veribdir qısırlara
Bizə səhra ilığımı, lal çöllərin boz daşı.

Ya dəniz ləngərdə ol, gözlərində dan yeri
Ya sinən hədəf olsun, ömrün düşmən çəpəri
Yenə də başın üstə ixtiyarlı sərsəri
Dayandırır bizi də nadanlarla yanaşı.

Bu ocağa çox uyma, yaxınlaşsan yanarsan,
Öz ruhuna güvən ki, orda şərdən kənarsan.
Məndən sonra qürurla, göz yaşıyla anarsan
Doğmalar içində də duyulmayan qardaşı...

KÖÇMƏRƏM

Mən bu yurdun boz sərçəsi olmuşam,
Lap cənnətdən vədə gələ, köçmərəm!
Bəxtimizə ya dünyanın ağası.
Ya ağılsız gədə gələ, köçmərəm!

Palçığıynan, çamırıynan yaşaram,
Bir kündəlik xamırıynan yaşaram,
Ağacdakı mamırıynan yaşaram,
Ölüm mənə hədə gələ, köçmərəm!

Nə olsun ki, hər yer burdan abadan,
Hamı qaçır savaş adlı vəbadan,
Başımıza turp əkən bu Babadan
Sonra da bir dədə gəlsə, köçmərəm!

Biz beləyik... dərdimiz min, çəkən bir,
Oğru saysız yeyən yüzdür, əkən bir...
Bir başım var, bu mədəni çəkəmmir,
Baş yerinə mədə gəlsə, köçmərəm!

Diri ruhum didərginlər yanında.
İlham pərim çöllərdə, çit donunda,
Bu çilçıraq şəhərlərin sonunda
Zülmətxana Bərdə gəlsə, köçmərəm!

Gedib gördük Nyu-Yorku, Parisi,
Qucaq açdı qürbətin yüz pərisi,
Çox da şair gözəlliyin hərisi,
Yaşananlar bir də gəlsə, köçmərəm!

Bahar gülsün tikan tutmuş gülümlə,
Bəxtəvərəm gözü yaşlı elimlə,
Gecə-gündüz döyülsəm öz əlimlə,
Gözlərimə pərdə gəlsə, köçmərəm!

MİLLƏTƏM

Çəkil torpağımdan, ey yağı düşmən,
Mən şeytan ümidin üzən millətəm.
Dünyanı üstümə qaldırdın, yetər,
Dünyanın dərdinə dözən millətəm!

Qədimlik uydurdun, hamısı yalan,
Ruhuma əl atdın, öz ruhun talan,
Qoynumda qıvrılan ay şahmar ilan,
Mən ilan başını əzən millətəm.

Tarix yaradanam, yalan yazansan,
Açıq okeanam, bağlı qazansan,
Torpaq becərənəm, qəbir qazansan,
Qəbri ayaq tutub gəzən millətəm...

Düzmə qabağıma çopur daşları,
Səsləsəm dikələr dağ qardaşlarım,
İstəsən tarixi bir də başlaram,
Mən durğun həyatdan bezən millətəm!

Bu şeytan çömçəsin durmadan fırla,
Özünü hesaba vur da sıfırla,
Mənim barmağımda dünya fırfıra,
Gün boyu, Ay boyu əsən millətəm.

O yunan qardaşın, o rus qardaşın
Verdi qoltuğuna qarpızı, daşı,
Bircə sənətin var, o da baş daşı,
Mən daşı məhraba düzən millətəm!

Ruhum göydən gəlir, o da ki haqdı
Haqqı gücsüz bilib gülmək günahdı
Gələcək cəzanı çəkməyin vaxtı
Hesabı axırda kəsən millətəm.

HALIMI SORMA

Eldar Mansurov bəstələyib

Nəyi itirmişdim, nəyi qazandım,
Harda şaxta vurdu, harda qızındım?
Bahardı, payızdı? –
Halımı sorma!
Taleyim nə yazdı? –
Halımı sorma!

Vətənim yaralı, elim yaralı,
Çiçəyim yaralı, gülüm yaralı
Qaçqınam, köçkünəm –
Halımı sorma!
Sıx məni köksünə –
Halımı sorma!

Yarımçıq ürəklə – sevgimiz haram,
Mən belə səadət arzulamaram
Şəhidəm, itkinəm –
Halımı sorma!
Qisas gününəcən –
Halımı sorma!

MƏNDƏN SALAM SÖYLƏ

Məndən salam söylə! Kimə? Heç kimə!
Daha o yerlərdə kimsəm qalmadı.
Daha güneylərdə saralan zəmim,
Xırmanda yarımçıq kisəm qalmadı.

Ala yaylaqlara qanadlanmağım
Qırovlu qışlağa tədarüküm yox.
Arxı bağlanmayıb bostanlarımın
Təzə yurd yerində təzə hörgüm yox!

Alması düşmədi nağıllarımın,
Üçə də şərikdi, beşə də şərik.
Dünyanın günəşi, gündüzü təkrar,
Təkrar olunmayan təkcə bizlərik.

Məndən salam söylə, mənim olsa da,
Əslində mənimki olmayanlara
Çoxdan torpaqlara qarışıb gedən
Ancaq xatirəsi solmayanlara!

Fəsillər qayğıma, duyğuma ortaq
Bahar təraveti, qış dözümü var
Yaxşı ki, dünyada insana əvəz
Ağac etibarı, daş dözümü var.

Çiçəkdən naxışlı qəbir daşları
Nə yola boylanar, nə sənə baxar,
Salam de, üzünə baxmaz bu dünya,
Ancaq təmizdirsə səsinə baxar...

Məndən salam söylə, beşiyim üstə
Çayları saz kimi çaldıranlara,
Dağlarda nəslimin nişanəsitək
Namus qalaları qaldıranlara.

Məndən salam söylə, yurd yerlərində
Hələ oxunmayan lal yazılara,
Tüstüsü ruh kimi uçan evlərə,
Çoxdan açılmayan darvazalara.

O qoca palıdın kölgəsi mənim
Çox da ki, gədikdə yalqızdı, təkdi.
Sübhün yellərinə məndən salam de,
Bütün ünvanlara yetirəcəkdir.

Məndən salam söylə, o qoca dağlar
Sənə də qoynunda öz balam deyər.
Şükür ki zirvələr öz yerindədir –
Bir salam deyənə yüz salam deyər!

TANRI IŞIĞI

Bir kökümüz doğudadı,
Bir kökümüz günbatanda
Biz tarixin yoldaşıyıq
Dünya boyda bir vatanda
Min savaşın ağrısı var
Damarlarda coşan qanda
Zəhər oldu qədərimiz
İçdik Tanrı işığıtək
Ölüm kəsdi yolumuzu
Keçdik Tanrı işığıtək!

Yakutlardan üzü bəri
Bir qardaşdı yaxın-uzaq,
Türk, azəri, türkmən, tatar,
Özbək, başqırd, qırğız, qazax...
Kim aranı kəsəcəksə
Bu savaşı uduzacaq
Yenmək üçün doğulmuşuq,
Sərtik Tanrı işığıtək!
Bir babanın övladıyıq,
Türkük Tanrı işığıtək!

Qoy yan-yana dalğalansın
Bir millətin bayraqları
Günəş bizə beşik olub
Xatırlayaq o çağları
Alaq düşmən caynağından
Əsir düşən torpaqları
Şəhidlərə salam verək
Səraq Tanrı işığıtək,
O yurdlar ki, bizi bəkləı
Varaq Tanrı işığıtək!

MÜNDƏRİCAT

Ön söz ... 4

Tanımaq istəsən

Vətən ... 11
Kəndimizin qızlarına ... 12
Yardımlı yollarında ... 13
Zirvənin dərdi ... 14
Tanımaq istəsən ... 15

Sevgim, sevincim

Yollarımız ... 17
Müqəddəs adətlər ... 18
Bir mahnı oxuyur kənd gözəlləri ... 20
Xatirə qatarı ... 21
Rəqqasə ... 22
Səndən küsmüşəm ... 23
Təzə pərdə ... 24
Məni sevirsənsə ... 25
Yoxlama ... 26

Xəbər gözləyirəm

Xəbər gözləyirəm ... 27
Geri dönməliyik ... 28
Bir qarış Vətən torpağı ... 30
Qan yaddaşı ... 33
Yardımlının dağları ... 35
Anaya məktub ... 35
Xoşbəxt olmaq ... 37
"Yanar için-için bir eşqin qəmi..." ... 38

Gəncə qapısı

Şairlik nəyimə gərəkdir mənim? ... 39
Ələk ... 41
Səttar Bəhlulzadə küçəsi haqqında şəhər sovetinə açıq məktub ... 43
Şəhər kənarında ... 45

Bu cavan yaşımda ... 47
Salam, Gəncə qapısı ... 48
Nəyə gərək belə qardaş ... 50
İçimdəki dərd ağacı ... 53
Sənə ucqar söylədilər ... 55
Gərək biz bacaraq ... 56
Başını aşağı sal, işini gör ... 57
M.Ə.Sabirin məzarı üstündə ... 59
Barışıq ... 60
Evə qayıdaram ... 63
Boş qalmış yuvalara dəyməyin ... 64
Məktəb zəngi ... 66
Məktəb yolları ... 68
At haqqında iki əfsanə ... 69
1. Kəhər at və səadət ... 69
2. Tale qismət ... 71
Qocalar payızda taxıl əkərdi ... 73
Biçin nəğməsi ... 74
Atamın əlləri ... 76
Birinci-sonuncu ... 77
Analar ağlamasın ... 78
Üç addım yer ayır ... 79
Bir şam yandırarsan ... 80
Dalımca ağlama ... 81
Gəlsəydi ... 81
Krım mahnılarından ... 82
I. Yetim adlar ... 82
II. Mənə toxunma ... 84

Sağ ol, ana dilim

Sağ ol, ana dilim ... 85
Ruhumuz sərhədsiz olduğu üçün ... 87
Yurdumun ən gözəl nəğməsi ... 88
Açılan yolların mahnımı ... 90
Doğmalıq ... 91
Tarixi yaradanlar ... 92
Qopuz səsi, Şaman duası ... 93
Tərcüməçimə ... 94
Yandırar məni ... 95

Qara durna ... 96
Ürəyin möcüzəsi ... 97
Şair heykəlləri ... 99
Bir səsin gücü ... 100
Yığıblar üzümüzü ... 102
Özünü öymür ... 103
Yurdumun qisməti ... 104
Bir bəstəkara ... 105
Çeşnilər ... 106
Anamın duası ... 110
Qaragilə ... 111
Anamın məktubu ... 113
Vəsiyyət ... 113
Yolun yarısından ... 114
Unut məni ... 115
Qayıtma ... 115
Gərək deyilsən ... 116
Bağışla ... 117
Bu yurd mənə tanış gəlir ... 118
Fransa yollarına deyilmiş şeirlərdən ... 119
Sen-Deni küçəsində gecə gəzintisi ... 119
Gözəllik ilahəsi ilə görüş ... 122

Qan yaddaşı

Ölümsüz zəhmət ... 124
Günəşin köməkçisi ... 125
Bir abidə üstündə ... 126
Vaxtı yetişər ... 127
Kişi ömrü ... 129
İlhamlı çağımda ... 129
Yaşamaq inadı ... 131
Yarpaq yağışı ... 132
"Bir gün dodağımda..." ... 133
Kəndə qayıdaram ... 134
Yay həsrəti ... 136
İstisuyun səhəri ... 137
Dağlardan dağlara danışın ... 139
Nazim hikmət yolu ... 139
Gündüzüm gözləyir ... 141

Günəbaxan zəmisində ... 141
Əlac nədir ... 142
Polşadan bir yarpaq ... 144
Amerika müğənnisi Yelena Xeymura ... 144
Ayrılığın dilini öyrənirəm ... 146
Qovuşa bilim ... 146
Birimiz sağ gözük, birimiz sol göz ... 147
Gizli səs ... 148
"Bu çəməndə bir çiçək var" ... 149
"Yuyursan saçından öpüşlərimi" ... 150
Barışa bilmirəm ... 150
Xəbərsiz getmə ... 151
Min illərin həsrəti ... 152
Üzü sənə yaşayıram ... 153
Səni gözləyirəm ... 155
"Yenə də tək qoyub gedirəm səni" ... 156
"Xoşbəxt ol" söylədin ... 156
Belə yaşayıram ... 157
Kəpənək ... 158
Dünya gözümdən düşüb ... 159
Cavad xan (poema) ... 160

Öləndə bayrağa bükülməyəm

Bu qılınc da sənin, bu daş da sənin ... 178
Nəğmələm ... 180
Öləndə bayrağa bükülməməsə ... 182
Şairlərə borcumuz ... 183
Yurdun bayrağı ... 185
Yazılmamış şeirlərim ... 186
Bəxtiyar, Əli ... 187
Ölən qorxumuz ... 188
Tonqal iyi ... 190
Acı xatirə ... 191
"Azərbaycan" qəzetinə gözaydınlığı ... 192
Ölümün görüşünə gedən qız ... 194
20 Yanvar xatirəsi ... 196
Qorxum qalmadı ... 197
Zireh ... 198
Mən demədim ... 199